XƏYANƏTİN KƏSİŞMƏSİ

povest

Rüstəm CABBAROV

(Əvvəli ötən saylarımızda)

Birincidən, əgər o Şərqiyənin otağına oğurluq məqsədi ilə girsə idi, təkcə boyunbağını götürməzdi. Çünki nə onun barmağındakı qızıl üzüyə nə də cantasındakı pula toxunulmamışdı. Həmin otaqda onun nə əl izlər, nə də ayaq izləri aşkar olunmayıb. Tibbi ekspertiza Şərqiyənin saat doqquz radələrində öldürüldüyünü müəyyən etdi. Bu vaxt isə o iş yoldaşı ilə gecə klubunda bir yerdə olduğunu sübut etdi. Bundan sonra onu necə saxlamaq olar? Ona görə də buraxılıb.

- Deməli, bütün günahlar yazıq Doniyarın boynuna düşür eləmi,-qızlardan biri təssüflə qeyd etdi.

- Niyə yazıq olur? Bütün sözlərə qarşı fikir bildirməyə vərdiş edən Şokir bu dəfə də dinc durmadı. - Yəni canlı şahidin özüdür. Yataqxanada ondan başqa heç kim olmayıb. Hər kəsdən şübhələnmək ağılsızlıq olardı. Başqa kim, Şərqiyəyə qəsd edə bilərdi? Son vaxtlar Danyar kobudluq edir, hisslərini gizlətməyi bacarmırdı. Uzun müddət sevdiyi qızın onun sevgisin inkar etməsini bağışlaya bilmirdi. Bəslədiyi kin onu yeyib tükədirdi.

- Onda niyə Fəyazdan deyil, Şərqiyənin özündən intiqam alır?-Şakirin nəfəs almasını gözləyən Şodiyə həvəslə onun üstünə atıldı. - Əsil kişi qız uşağından deyil, rəqibin özündən intiqam almalıdır.

Şokir nə cavab verəcəyini bilməyərək dayandıqda, kurs yoldaşlardan başqa birisi Cahangir müzakirəyə qoşuldu.

- Şakirin sözlərində həqiqət var. İki ay əvvəl biz kafeyə Doni ilə yeməyə getdik. Açığı...nə deyim yavaş yavaş yeməyimizi yeyərək söhbət edik. Doninin əhvalı yaxşı deyildi. "Bilirsənmi dostum, bir gün Şərqiyə ilə Fəyaza elə tələ quracağam ki, tüstüsü təpəsindən çıxsın..." - dedi.

Bayaqdan bəri gah onun, gah bunun danışıqlarını sakitcə oturub dinləyən Fəyaz indi söhbətin gedişini əlinə aldı:

- Deməli belə - hər şey aydındır. Əvvəlcə mən də şok oldum. Ancaq nə edəsən?!... Görünür bəzi adamlar üçün müqəddəslik anlayışı yoxdur. Yəni mənim neçə dostum var ki? - Hamı - bir nəfər dedi. Doni də belə düşünürdü. Biz birbirimizi başa düşmüşdük. Nə bilim...

Auditoriyaya sükut Çökdü. Bu dəfə sükutu Şakir pozdu:

-Onda bunu kim edib? Sən məşqdə olubsan. Daniyar xəstə. Siroc da yolda . Onda... - Şakir hər hansı bir ehtimala qarşı hamının adını sadaladı... -Visalə gəlmədimi?

Şodiya çiyinlərini çəkdi: - Hələ gəlməyib. Nədənsə, telefona da cavab vermir.

Müzakirədən yorulan Fəyaz yerindən qalxıb: - Daha nə olursa-olsun, onsuz da Şərqiyə geri qayıtmayacaq...

Fəyaz başını bulayaraq belə dedi və bura yığılanların arasından çölə çıxdı. Onun auditoriyadan çıxmasını hamı səs çıxarmadan gözlədi. Şoirə o çıxan kimi dilləndi: -Gördünüzmü, yazıq özünü necə öldürür.

- Bəli, onun üçün çətin idi, - deyən Şodiya, kiçik bir istehza ilə. Başqa bir xəbəri eşitmisinizmi? Şərqiyə ...hamilə olub.

Hamı ona baxdı. Bu xəbərdən indiyə kimi məlumatı olmayan qızlar "vay" deyərək ağızlarını yumdular. Şodiya isə "heyran oldum" deyərək, özündən razı kimi, sözünə davam etdi. - Düşünürəm ki, o özünü intihar edib. Kim bilir ...-yaxşı əhval-ruhiyyədə o, Fəyazın çıxdığı tərəfə baxdı: -Əgər "evlənməyəcəm" deyibsə...

Sinifkom Umidcan dedi-qodunun başladığını görüb dedi! Birincisi mən heç kimin intihar etdiyini söylədiyini eşitməmişəm. İkincisi, ölənin arxasınca pis danışmazlar. Yığışdırın bu söhbətləri. Həqiqətən Doni öldürübsə, özü cavabını verəcək.

-Deməli sən də Doniyarın qatil olduğuna inanırsan ...

Şokir söhbətini qurtarmadı. Bu zaman qapı açıldı və Doniyar ağır addımlarla auditoriyaya daxil oldu. Onun gəlişinə təccüblənən kurs yoldaşları yerlərində donub qaldılar.

Bu qızğın söhbətə yalnız Masudbəy müdaxilə etmirdi, o burada yığışanların hamısını laqeyd-laqeyd izləyirdi.

...Aradan bir saat keçmiş auditoriyaya heç kimin gözləmədiyi bir xəbər gəldi. Visola milisə gedib, bütün günahlarını boynuna alıb...

* * *

"Mən nə etdim? Əvvəla yol verdiyim səhv bəs etməzdimi? İndi yenidən böyük bir səhv etməli oldum? Mən ata-anamın qarşısında necə adam oldum? Tanış-biliş, dost-düşmən qarşısında necə?

Bunun kimi fikirlər ictintaq təcridxanasının dar otağında yuxuya getmək arzusunda olan Visolaya sakitlik vermirdi.

Niyə müstəntiqin qarşısında göz yaşları tökməyə çalışmadı? Yoxsa hər hansı bir faydasız hərəkatın olduğunu bilən kimsə varmı? Doğrudur, daha heç kim qalmadı günahlandırmağa! Daniyarda, Siroc da günahsız olduqlarını sübut edə bildilər, başqa kimin yaxasından yapışmaq olar?

Evdəkilər hələ bilmirlər. Eşidəndə yəqin ki evdə qiyamət qopacaq. Atası yerin altında da olsa uçub gələcək. Yəqin ki, hamını ayağa qaldıracaq. Sonda yeganə qızını həbsdən azad etmək üçün əlindən gələni edəcək. Hətta ola bilsin ki, ata uzun boylu qızının belinə qatil möhürü vurulduğunu eşidib, ondan imtina etsin? Bəs anası? Zəif ana! Onun vəziyyəti necə olacaq?

Visola bu vaxta qədər baş vermiş hadisənin dəhşətlərini doğru-dürüst başa düşə bilməsə də, ən azından dəmir barmaqlar arxasında bütün dünyada baş vermiş saxtakarlıqlar barədə düşünməyə, keçmiş işlərinə yekun vurmaq üçün indi vaxtı və imkanı kifayət qədər idi.

"Niyə bu şəhərə gəldim?..."

... Hər şey ordan başladı. Vilayət mərkəzi uzaq olsa da, sakitcə oxuyurdu. Hər gün tezdən atasının avtomobilində dərsə gedər, dərsdən sonra isə müasir "inomarka" onun xidmətində idi. Fakültədə, kursda hörmət-etibar sahibi idi. Atasının xeyirxah davranışına alışmış müəllimlər soruşmadan onun qiymətini yazar, sesiya, imtahan "fırıldaqçılıq" və tələbəliyin narahatlıqları tamamilə ondan uzaq idi. Ən azından iki-üç ay bundan əvvəl belə bir fırıldaqçılıq heç onun yuxusuna da girməzdi.

Bəlkə elə bu sakit və xoşbəxt həyat onu bezdirdiyindən o paytaxtda təhsilini davam etdirmək fikrinə düşdü? Beş altı ay səbir edib diplom almaq əvəzinə yenidən bir il oxumaq nəynə lazım idi?

Xeyr, nə onun kurs yoldaşları, nə çirkin auditoriya, nə də müəllimlər onun xasiyyətinə uyğun idi.

(Davamı var)

Tərcüməçi: Ədalət